BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2010*

# XARİCİ ÖLKƏLƏRİN QANUNVERİCİLİYİNDƏ AMNİSTİYA VƏ ƏFVETMƏNİN ÜMUMİ SƏCİYYƏSİ

**S.N.RZAYEVA**
***Baki Dövlət Universiteti***
***aytenrzayeva@hotmail.com***

*Məqalədə xarici ölkələrin qanunvericiliyində amnistiya və əfvetmənin ümumi səciyyəsi tədqiq edilir. Göstərilir ki, xarici ölkələrin əksəriyyəti öz qanunvericiliyində cinayət məsuliyyətindən və cəzadan azad etməni, başlıca olaraq, əfvetmə yolu ilə həyata keçirməyi nəzərdə tutur. Xarici ölkələrdə əfvetmə, bir qayda olaraq, dövlət başçısı tərəfindən həyata keçirilir. Amnistiyanın elan olunmasının mümkünlüyünü nəzərdə tutan ölkələrdə bu hüquq dövlət hakimiyyətinin ali qanunverici orqanına məxsusdur. Qanunvericilikdə amnistiya müfəssəl tənzimlənmir, amnistiyanın elan olunması və tətbiqi qaydaları işlənib hazırlanmamışdır. Həmin ölkələrdə amnistiyanın tətbiqi çox vaxt nadir hallarda həyata keçirilir.*

*Məqalədə araşdırılan məsələ ilə bağlı müvafiq nəticələr çıxarılır.*

Hüquq sahəsi daxil olmaqla dövlətlərin ictimai münasibətlər sistemində baş verən dəyişikliklər onların hər biri üçün müstəsna dərəcədə mühüm əhəmiyyətə malikdir. Dövlətlərin hüquq sahəsində əməkdaşlığı, qanun yaradıcılığı və tətbiqi sahəsində bir-birinin təcrübəsini nəzərə alması zəruridir və qarşılıqlı surətdə zənginləşməyə xidmət edir. Bu, eyni zamanda müxtəlif milli hüquq sistemlərinin bir-birinə səmərəli yaxınlaşdırılması kimi olduqca aktual məsələnin həll edilməsi, onların unifikasiyası sahəsində razılaşdırılmış və ölçülüb-biçilmiş təkliflər işlənib hazırlanması işinə imkan yaradır. Fransız alimi M.Ansel haqlı olaraq qeyd etmişdir ki, hüquqşünasın xarici ölkələrin hüquq təcrübəsini öyrənməsi onun öz ölkəsinin hüququnu daha yaxşı bilməsinə kömək edir, onu öz ölkəsinin hüququnu hətta çox yaxşı bilməklə əldə edə bilməyəcəyi ideya və dəlillərlə silahlandırır (1, 33). Bu baxımdan xarici ölkələrin amnistiya və əfvetmə haqqında qanunvericiliyinin öyrənilməsi həm elmi, həm də praktik cəhətdən aktual məsələdir. Belə ki, amnistiya və əfvetmə institutları ilə bağlı araşdırmalarda müqayisəli tədqiqatların aparılmasının, xarici ölkələrin qanunvericiliklərinin öyrənilməsinin, onların qiymətli cəhətlərinin və qüsurlarının aşkar edilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki bu,

1)qeyd olunan institutların təkmilləşdirilməsi üzrə ən yaxşı hüquqi qərarların qəbul edilməsi üçün, milli qanunvericiliyin sonrakı təkmilləşdirilməsi və yeniləşməsi üçün əsas yaradır;

2) hazırkı dövrdə milli qanunvericiliklərin bir-birinə yaxınlaşdırılması kimi mühüm problemin həllinə kömək edir.

Dövlətlərin ərazisində amnistiya və əfvetmənin eyni cür tətbiq edilməsini nəzərdə tutan cinayət qanunvericiliyinin olması hüquqi yardım haqqında beynəlxalq

müqavilələrin normalarının daha səmərəli həyata keçirməyə imkan verir. Çünki başqa dövlətin tələbi ilə cinayətkarın verilməsinə və ya cinayət təqibinin həyata keçirilməsinə razılıq verilməsinin şərtlərindən biri əməlin həmin dövlətdə cinayət hesab edilməsidir. Xarici ölkələrin cinayət və cəza-icra qanunvericiliklərinin təhlili göstərir ki, onların bəzilərində amnistiya və əfvetmə institutlarına prinsipcə yeni münasibət vardır. Y.A.Tixomirov yazır: «Dövlətlərin əməkdaşlığını çətinləşdirən milli qanunvericiliklərin fərqli olması onların yaxınlaşdırılmasının xüsusi üsullarına müraciət etməyi tələb edir. Milli qanunvericiliklərin bir-birinə uyğun gəlməyən normalarının əvəzinə ictimai münasibətləri eyni şəkildə tənzimləyən yaxud onların ümumiliyini tapmaq üçün əsas yaradan unifikasiya edilmiş hüquqi normalar nəzərdə tutulur. Həm dövlətlər arasında, həm də dövlət daxilində münasibətlərin eyni cür hüquqi tənzimlənməsi onların səmərəliliyinin yüksəldilməsinə və hüquqi kolliziyaların qarşısının alınmasına kömək edir» (6, 59).

Bundan başqa, amnistiya və əfvetmə ilə bağlı milli qanunvericiliklərin unifikasiyası nəticəsində yaradılan hüquqi normalar cinayətkarların islah edilməsinin, amnistiya və əfvetmə tətbiq edilmiş şəxslərin yeni cinayət törətmələrinin qarşısının alınmasının səmərəli vasitəsidir.

Amnistiya və əfvetmə haqqında xarici ölkələrin qanunvericiliklərinin və onun tətbiqi təcrübəsinin nəzəri tədqiqi sayəsində Azərbaycanda qeyd olunan institutlarla bağlı qüvvədə olan hüquq normalarının təkmilləşdirilməsi və yeniləşdirilməsi üzrə əsaslandırılmış təkliflər vermək mümkündür. Amnistiya və əfvetmə ilə bağlı milli qanunvericiliklərin bir-birinə yaxınlaşdırılması probleminin həlli üçün qanunvericiliklərin səmərəli uyğunlaşdırılması, onların unifikasiya edilməsi üzrə razılaşdırılmış və ölçülüb-biçilmiş təkliflər işlənib hazırlanması tələb olunur. Amnistiya və əfvetmənin öz ərazilərində vahid formada tətbiq edilməsini nəzərdə tutan dövlətlərin cinayət qanunvericiliyi hüquqi yardım haqqında beynəlxalq müqavilələrin normalarının daha səmərəli həyata keçirilməsini təmin edir. Çünki cinayətkarın verilməsi və ya cinayət təqibinin həyata keçirilməsi üçün sorğu verən dövlətə razılıq verilməsinin şərtlərindən biri həmin dövlətdə baxılan əməlin cinayət hesab edilməsidir. Dövlətlərin amnistiya və əfvetmə sahəsində milli qanunvericiliklərinin unifikasiya edilməsi cinayətkarların islah olunmasının, amnistiyaya düşən və əfv edilən şəxslərin yeni cinayət törətmələrinin qarşısının alınmasının səmərəli vasitəsi olan hüquq normalarının yaradılması məqsədini daşıyır. Bu məqsədin həyata keçirildiyi halda cinayətkarlar özlərinin kriminal fəaliyyətləri üçün daha az risk və ya daha çox gəlir əldə etmək prinsipi üzrə əlverişli dövlət seçə bilmirlər. Unifikasiya edilmiş hüquqi normaların yaradılması həm də amnistiya və əfvetmə institutlarının tətbiqi üzrə vahid məhkəmə praktikasının təşəkkül tapmasına kömək edir.

Xarici ölkələrin cinayət və cəzaların icrası qanunvericiliklərinin təhlili göstərir ki, ayrı-ayrı xarici ölkələrin cinayət qanunvericiliklərində amnistiya və əfvetmə institutlarının bir-birinə yaxınlaşdırılması baxımından müəyyən məqamlar vardır. Bu məqamların dərindən öyrənilməsi tələb olunur. Cinayətkarlıqda keyfiyyət dəyişiklikləri – onun transmilli və mütəşəkkil xarakter alması baxılan sahədə vahid hüquqi məkanın yaradılmasının zəruriliyini təsdiq edir və baxılan problemi daha da aktuallaşdırır.

Uzaq xarici ölkələrdə amnistiya və əfvetmə institutlarının tənzimlənməsinin əsas ümumi cəhətlərini nəzərdən keçirək. Ən əvvəl qeyd edək ki, əfvetmə institutu, demək olar ki, bütün xarici ölkələrin qüvvədə olan qanunvericiliklərində nəzərdə tutulsa da bunu amnistiya haqqında demək olmaz. Əfvetmə ilə müqayisədə amnistiya

bəzi dövlətlərdə cəzadan və cinayət məsuliyyətindən azad etmənin müstəqil institutu kimi saxlanılmamışdır. Xarici dövlətlərdə amnistiya və əfvetmə əsasında cəzadan və cinayət məsuliyyətindən azad etmə həyata keçirilir, ancaq tətbiq edilən amnistiya və əfvetmə aktlarında onların səbəbləri heç də həmişə əsaslandırılmır. İngilis-amerikan hüquq sisteminə daxil olan ölkələr buna misal ola bilər. Bu ölkələrdə hüququn əsas mənbəyi məhkəmə presedentləri və statutlardır. Cinayət-hüquqi tənzimləmənin xeyli hissəsi presedentlərdə cəmlənmişdir. Belə ki, Böyük Britaniyada, ümumiyyətlə, cinayət məcəlləsi mövcud deyildir və bir çox cinayətlərə görə məsuliyyət ümumi hüquq üzrə müəyyən edilir. Bu isə o deməkdir ki, onların anlayışını qanunvericilik aktlarında deyil, məhkəmə qərarlarında tapmaq olar. Qeyd etmək lazımdır ki, ingilis-amerikan hüquq ailəsinə daxil olan ölkələrdə çox vaxt amnistiya və əfvetmə bir-birinə qarışdırılır. Belə ki, ABŞ, Kanada və Böyük Britaniyada cinayət-hüquqi münasibətlərlə bağlı «pardon» institutu işlənib hazırlanmışdır. İngilis dilindən tərcümədə «pardon» əfvetmə, «general pardon» isə amnistiya mənasını verir. Ancaq hazırda ingilis-amerikan hüquq sisteminə daxil olan ölkələrdə nə sırf əfvetmə, nə də sırf amnistiya mövcud deyildir. «Pardon» termini altında həm əfvetmənin, həm də amnistiyanın elementlərinin daxil olduğu cinayət məsuliyyətindən və cəzadan azad etmənin kompleks institutu başa düşülür. Məsələn, ABŞ Konstitusiyasının 2-ci bölməsinin II maddəsi Birləşmiş Ştatların əleyhinə törədilmiş cinayətlərə görə çıxarılmış hökmlərin icra olunmasını təxirə salmaq və ya cəzadan azad etmək hüququ verir. ABŞ Prezidenti öz səlahiyyətini həm qeyri-müəyyən şəxslərə, həm də fərdi qeyri-müəyyən şəxslər qrupuna tətbiq edə bilər.

Beləliklə, ABŞ-da həm əfvetmənin və həm də amnistiyanın elementlərinin daxil olduğu bağışlama hüququ icra orqanlarının ali vəzifəli şəxsinə məxsusdur. ABŞ Konstitusiyasına uyğun olaraq federal qanunvericiliyi pozan cinayətlərə görə bağışlama hüququ Prezidentə, ştatların Konstitusiyalarına uyğun olaraq isə müvafiq ştatların qanunlarını pozan cinayətlərə görə həmin ştatların qubernatorlarına verilmişdir. Bağışlama şərti xarakter daşıya və müəyyən məhdudiyyətlərlə müşayiət edilə bilər. Bağışlama hüququna həmçinin cəzanı başqa, daha yüngül cəza növü ilə əvəz etmək də daxildir. ABŞ-ın bəzi ştatlarında qubernatorun yanında bağışlama məsələləri üzrə büro yaradılmışdır.

Nyu-York ştatında bağışlama ilə bağlı müəyyən tələblər mövcud olsa da, bağışlamanın xüsusi forması nəzərdə tutulmur. Belə ki, göstərilən tələblərə bağışlama haqqında vəsatətə ittiham aktının surətinin əlavə edilməsi daxildir. Bundan başqa, istənilən şəxs bağışlama haqqında ərizə verdikdən sonrakı 30 gün ərzində qubernatorun və bağışlama məsələləri üzrə büronun ünvanına öz xahişinin müdafiəsi və ya əleyhinə zəmanət və ya protest göndərə bilər.

Prezident və ya qubernator əfvetmə haqqında vəsatəti təmin edə və ya rədd edə bilər. Məsələn, birinci dərəcəli adamöldürmə cinayətinə görə ölüm cəzasına məhkum olunmuş Laqrand qardaşlarının əfvetmə haqqında vəsatətinə Arizona ştatının qubernatoru baxmış, təkcə vəsatəti deyil, həm də onların edamının qaz kamerasında boğmaqla deyil, ölüm iynəsi vurmaqla icra olunması xahişini rədd etmişdir (7).

ABŞ-da ikinci dəfə əfvetməyə icazə verilmir və bu, birbaşa göstərilir. Belə ki, ABŞ-ın Ali Məhkəməsi 1974-cü ildə Şikanın işi üzrə müəyyən etmişdir ki, prezident əfvetmə yolu ilə ölüm cəzasını azadlıqdan məhrumetmə ilə bir şərtlə əvəz edə bilər ki, həmin şəxsə sonradan cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq edilməsin (5, 699-700).

Bağışlama məsələsinin formal dinlənilməsi yalnız ölüm cəzasının əvəz edilməsi xahiş edildikdə baş verir. Bağışlama xahişinə baxılarkən qubernator xahiş edən şəxsin sağlamlığı və psixikası haqqında rəy tələb edə bilər. Bağışlama haqqında xahiş təmin edilmədikdə təkrar xahiş bir il sonra edilə bilər.

Əfvetmə Böyük Britaniyada da geniş tətbiq edilir. Əfvetmə haqqında materiallara daxili işlər nazirliyinin cinayət işləri departamentində baxılır və məsələnin müsbət həlli zamanı dövlət katibi məhkumun əfv edilməsi haqqında zəmanət verir.

Böyük Britaniyada əfvetmə üç formada həyata keçirilir:

1. Tam əfvetmə. Bu zaman məhkumluq faktı və məhkumluqdan irəli gələn bütün nəticələr daxil olmaqla bütün cəza növləri ləğv edilir.

2. Şərti məhkumetmə. Belə əfvetmə bir cəza növünü başqası ilə əvəz edərək cəzanı yüngülləşdirir.

3. Cəzanın azaldılması. Bu zaman cəzanın xarakteri dəyişdirilmədən müddəti və ya həcmi azaldılır.

Böyük Britaniyada əfvetməni taxt-tac (hakimiyyət) adından Baş Attorney həyata keçirir.

Başqa ölkələrdən Braziliyanın Konstitusiyasında amnistiya haqqında norma yoxdur. Bununla belə, «Keçid konstitusion müddəalar haqqında» aktda 18 sentyabr 1946-cı ildən 5 oktyabr 1988-ci ilədək olan dövrdə müstəsna olaraq siyasi motivlər üzrə hərbi hökumət tərəfindən cəza almış bütün vətəndaşlara, məhrum edildikləri bütün hüquqları bərpa edilməklə və həmin dövrdə onlara verilməli olan rütbə və vəzifələr veilməklə amnistiya vermək nəzərdə tutulur. Amnistiyanın yalnız siyasi motivlər üzrə cinayət cəzalarına məruz qalmış şəxslərə tətbiq edilməsi zəif inkişaf etmiş və hərbi diktatura rejimli ölkələr üçün səciyyəvi xüsusiyyətdir. Amnistiyanın belə tətbiqini Afrika və Cənubi Amerika ölkələrində müşahidə etmək olar.

Fransa qanunvericiliyi roman-german hüquq sisteminə daxildir. Bu hüquq sistemində, sözün geniş mənasında, cinayət hüququnun əsasını qanun təşkil edir. Fransada amnistiyadan uzun müddətdir ki, istifadə edilir.

Fransa Respublikasının 1958-ci il Konstitusiyasının 34-cü maddəsində deyilir ki, qanunları Parlament qəbul edir və amnistiyaya aid xüsusi qaydanı müəyyən edir. Fransada verilən konkret amnistiya aktları ümumi konstitusion qaydalara uyğundur (4, 103-139). Fransanın 20 iyul 1988-ci il tarixli 88-826 №-li Amnistiya haqqında qanununda hüquq pozuntusu törətməkdə təqsirli olan şəxslər üçün amnistiya nəzərdə tutulur, ancaq amnistiyanın səbəbləri əsaslandırılmırdı. Bu qanuna uyğun olaraq əmək münaqişələri və ya əmək haqqının artırılması tələbləri və s. ilə bağlı küçələrdə və ya ictimai yerlərdə keçirilən manifestasiyaların gedişində törədilən cinayətlərə görə məhkum edilmiş şəxslərə amnistiya tətbiq edilməsi nəzərdə tutulurdu. Qanunun yekununda deyilirdi ki, amnistiya onun tətbiq edildiyi şəxslərə kompensasiya verilməsi barədə həmin şəxslərin iddia verməsi üçün əsas deyildir.

Fransız qanunvericisi amnistiyanı təqsirkarlara bəraət verən aktlara aid etmir. Bildiyimiz kimi, Azərbaycan Respublikasının qanunvericiliyində də amnistiya bəraətverici akt sayılmır.

Fransanın 1992-ci il Cinayət Məcəlləsinin «Cəzaların icra olunmasının dayandırılması və ittiham hökmlərinin nəticələrinin aradan qaldırılması haqqında» adlanan III fəslinin 3-cü paraqrafı («Amnistiya haqqında») amnistiya məsələsinə hər edilmişdir. Cinayət Məcəlləsinin 133-9-cu maddəsinə uyğun olaraq amnistiya ittiham hökmlərinin hüquqi nəticələrini, bütün cəzaları, onların qüvvəsinin bərpa olunmasına

hər hansı imkan qoymadan ləğv edir. Amnistiya aktı ilə əməlin icraçısına və ya iştirakçısına, əvvəlki mühakimə vaxtı ona verilə bilən cəzanın icrasını təxirə salmaq hüququnu qaytarır.

Qeyd edək ki, Fransanın Cinayət Məcəlləsində cəzanın daha yüngül cəza növü ilə əvəz edilməsi, məhkumluğun götürülməsi, cəzanın azaldılması haqqında göstərişlər yoxdur. Cinayət Məcəlləsinin 133-10-cu maddəsində xüsusi qeyd olunur ki, amnistiya üçüncü şəxslərə zərər yetirmir.(8)

Fransada əfvetmə məsələləri 1958-ci il Konstitusiyası, 23 dekabr 1958-ci il tarixli 58-1271 №-li Ordonansla və 19 fevral 1959-cu il tarixli 59-305 №-li Dekretlə tənzimlənir. Bu aktlara uyğun olaraq əfvetmə hüququ Respublika Prezidentinə məxsusdur. Əfvetmə haqqında xahiş Respublika Prezidentinə və ya Ədliyyə nazirinə ünvanlanır. Vəsatətlərə baxmaq Ədliyyə Nazirliyinin cinayət işləri idarəsinə tapşırılır. Fransanın 1992-ci il Cinayət Məcəlləsinin III fəslinin «Əfvetmə haqqında» 2-ci paraqrafının 133-7-ci maddəsinə görə əfvetmə yalnız cəzanın icra edilməsindən azad edir. Məcəllənin 133-8-ci maddəsində isə göstərilir ki, əfvetmə zərərçəkənin cinayətkar əməl nəticəsində vurulan ziyanın əvəzini almasına mane olmur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müqayisədə Fransanın cinayət qanununda əfvetmə aktı ilə məhkuma təyin edilmiş cəzanın müddətinin azaldılması və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi yaxud məhkumluğun götürülməsi haqqında göstərişlər yoxdur. Qeyd edək, ki, Fransada amnistiya qanunla elan olunur.

Yaponiyanın qanunvericiliyində də amnistiya əsasında cinayət məsuliyyətindən və cəzadan azad etmənin mümkünlüyü nəzərdə tutulur. Yaponiya Konstitusiyasının 7-ci maddəsinin yeddinci abzasına və 73-cü maddəsinin altıncı abzasına uyğun olaraq amnistiya Nazirlər Kabinetinin qərarı ilə, İmperatorun bu qərarı təsdiq etməsi ilə tətbiq olunur. Nazirlər Kabineti öz fərmanında amnistiyanın şamil edildiyi cinayət növlərini müəyyən edir. Amnistiya cinayət prosesinin istənilən mərhələsində tətbiq oluna bilər. Bu fərmana uyğun olaraq şəxs azadlıq əldə edir, cəzadan azad olunur və cinayət təqibi ilə bağlı məhrum edilmiş vətəndaşlıq hüquqları bərpa oluna bilər. Amnistiya aktı fərdi qeyri-müəyyən şəxslər dairəsinə münasibətdə və yalnız imperator ailəsində toy, uşaq doğulması, bəzən isə imperatorun ölümü, sülh bağlanılması və s. bu kimi xüsusi səbəblər olduqda elan olunur. Məsələn, 1989-cu ildə Yaponiyada bu yaxınlarda vəfat etmiş imperator Xarixotonun şərəfinə amnistiya elan olunmuşdu. Bu amnistiyanın qüvvəsi 30 mindən artıq vətəndaşa şamil olunmuşdu. Bu zaman ictimai rəy amnistiyaya düşənlərin az bir hissəsini təşkil edən şəxslərin cəza çəkməkdən azad edilməsindən daha çox məhrum edilmiş vətəndaşlıq hüquqlarının, məsələn, siyasi hüquqlardan, seçmək və seçilmək hüquqlarının bərpa olunmasını təqdir edirdi. Qeyd edək ki, Yaponiyada amnistiya kifayət qədər nadir hallarda elan olunur.

İtaliyada əfvetmənin tətbiqinin mümkünlüyü yalnız Konstitusiya ilə tənzimlənir. Konstitusiyanın 79-cu maddəsində deyilir: «Amnistiya və cəzadan azad etmə parlamentin palatalarının üzvlərinin üçdə iki səs çoxluğu ilə, hər maddə üzrə və bütövlükdə qəbul olunan qanunla həyata keçirilir. Amnistiya elan edən və cəzanı yüngülləşdirən qanun onun tətbiqi şərtlərini də müəyyən edir. Heç bir amnistiya və cəzanın yüngülləşdirilməsi halı onun haqqında qanun layihəsi irəli sürüldükdən sonra törədilmiş cinayətə tətbiq oluna bilməz». Həmin maddəyə görə amnistiya və cəzadan azad etmə, parlamentin palatalarının verdiyi qanunun Respublika Prezidentinə ötürdüyü səlahiyyətlə həmin qanun əsasında Prezident tərəfindən icra edilir (4, 234-279).

Beləliklə, buradan belə nəticə çıxarmaq olar ki, amnistiya istənilən hüquq pozuntusuna tətbiq olna bilər; amnistiya İtaliya parlamentinin palatalarında üçdə iki səs çoxluğu ilə qəbul olunur; amnistiya haqqında qanun layihəsi baxılmaq üçün parlamentə verilmə gününə qədər törədilmiş cinayətlərə şamil olunur. Amnistiya elan olunmasının bütün digər məsələləri qanunvericiliklə tənzim olunmur və İtaliya parlamentinin müzakirəsinə saxlanılır.

Almaniya Federativ Respublikasında əfvetmə hüququ, əgər cinayət işinə birinci instansiya üzrə hər hansı federal məhkəmədə baxılıbsa Federal Prezidentə məxsusdur. Qalan cinayət işləri üzrə əfvetmə hüququnu torpaqların başçıları və ya digər səlahiyyətli orqanları (senat, hökumət, baş nazir, ədliyyə naziri) həyata keçirir. Göründüyü kimi, əfvetmə hüquqları müxtəlif torpaqlarda fərqlidir. Məsələn, Saar torpağında əfvetməni torpağın hökuməti, bir sıra ayrı-ayrı hallarda isə torpağın baş naziri şəxsən özü həyata keçirir. Torpaq hüquqlarına malik Berlin, Hamburq və Bremen şəhərlərində əfvetmə şəhər senatının səlahiyyətindədir.

Qeyd edək ki, Avropa ölkələrinin əksəriyyəti öz qanunvericiliyində cinayət məsuliyyətindən və cəzadan azad etməni, bir qayda olaraq, əfvetmə yolu ilə həyata keçirməyi nəzərdə tutur. Amnistiyanın elan olunmasının mümkünlüyünü nəzərdə tutan Avropa ölkələrində onun tətbiqi nadir hallarda həyata keçirilir. Bundan başqa, qanunvericilikdə amnistiya müfəssəl tənzimlənmir, amnistiyanın elan olunması və tətbiqi qaydaları işlənib hazırlanmamışdır.

Xarici dövlətlərin əksəriyyətində amnistiya elan etmək hüququ dövlət hakimiyyətinin ali qanunverici orqanına məxsusdur. Belə ki, Rumıniyada amnistiya Parlament tərəfindən, Macarıstan Respublikasında Dövlət Məclisi tərəfindən elan edilir (3, 265, 97-132).

Bir qayda olaraq, xarici dövlətlərdə əfvetmə dövlət başçısı tərəfindən həyata keçirilir. Belə ki, Polşa Respublikası Konstitusiyasının 139-cu maddəsinə, Fransa Respublikası Konstitusiyasının 17-ci maddəsinə uyğun olaraq əfvetmə hüququnu həyata keçirmək prezidentə məxsusdur. Ancaq Polşada əfvetmə Dövlət Tribunalı tərəfindən məhkum olunmuş şəxslərə tətbiq edilmir. Həmçinin Rumıniya Konstitusiyasının 94-cü maddəsinə görə və Macarıstan Respublikası Konstitusiyasının 30-cu paraqrafına görə fərdi əfvetmə hüququnu prezident həyata keçirir.

Türkiyə Respublikasının Konstitusiyasının 104-cü maddəsinin «v» bəndinə görə prezident yalnız xroniki xəstəlik, iş qabiliyyətinin olmaması və ya qocalıqla bağlı bəzi şəxslərin hökmünü tam və ya qismən ləğv etmək hüququna malikdir (2, 393). Türkiyənin 2004-cü il Cinayət Məcəlləsinin 65-ci maddəsində ümumi əfv (amnistiya) və xüsusi əfv (əfvetmə) məsələləri tənzimlənir. Həmin maddənin birinci bəndinə görə ümumi əfv vaxtı ictimai iddiaya xitam verilir, verilən cəzalar bütün nəticələri ilə birlikdə aradan qalxır, ikinci bəndinə görə isə xüsusi əfv vaxtı isə cəzaçəkmə orqanları həbs cəzasının çəkilməsinə xitam verə və ya həbs müddətini azalda, yaxud həbs cəzasını cəriməyə çevirə bilər. 65-ci maddənin üçüncü bəndinə görə cəza ilə bağlı olan və ya hökmdə göstərilən hüquqlardan məhrum etmələr xüsusi əfvlə ləğv olunmur.

Finlandiya Konstitusiyasının 105-ci maddəsində əfvetmənin iki növü müəyyən edilir: məhkəmə tərəfindən müəyyən olunmuş cəzanın ləğv edilməsi və ya yüngülləşdirilməsi (2, 393). Avstriya Respublikasının Konstitusiyasının 65-ci maddəsinin ikinci hissəsinin “s” bəndinə görə prezident ayrı-ayrı hallarda əfvetmə qaydasında qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə məhkum olunmuş şəxsləri əfv edə bilər,

məhkəmə tərəfindən təyin olunmuş cəzaları yüngülləşdirə və əvəz edə bilər, hüquqi nəticələri yüngülləşdirə və məhkumluğu götürə bilər, nəhayət, cinayət əməlinə görə rəsmi qaydada təqib olunan şəxslərə münasibətdə cinayət icraatına xitam verə bilər (2, 66).

Yunanıstan Respublikasının Konstitusiyasının 47-ci maddəsinə görə prezident əfvetmə hüququna malikdir: o, məhkəmələr tərəfindən təyin olunmuş cəzaların xarakterini və müddətini dəyişə bilər, habelə verilmiş və çəkilmiş cəzaların qanunla nəzərdə tutulmuş istənilən nəticəsini ləğv edə bilər. Ancaq prezident naziri yalnız parlamentin razılığı ilə əfv edə bilər. Amnistiya yalnız siyasi cinayətlərə münasibətdə parlament tərəfindən qanun qəbul edilməsi yolu ilə tətbiq edilir, adi cinayətlərə münasibətdə amnistiya hətta qanun üzrə verilmir (2, 664).

Göründüyü kimi, əfvetmə hüququndan xarici dövlətlərdə geniş istifadə edilir. Demək olar ki, bütün ölkələrdə əfvetmə prosedurası qanunla müəyyən edilir. Bu zaman əfvetməyə məhkəmə səhvlərini düzəltməyin sonuncu, bəzən həm də yeganə vasitəsi kimi baxılır.

## ƏDƏBİYYAT


1. Ансель М. Методологические проблемы сравнительного права. Очерки сравнительного права. М.: 1991, 385 с.
2. Конституции государств Европы. В 3-х т. Т. 3. / Под общей редакцией Л.А.Окунькова. М.: Норма, 2001, 792 с.
3. Конституции государств Центральной и Восточной Европы. М.: Норма, 1997, 578 с.
4. Конституции зарубежных государств. М.: Норма, 1996, 406 с.
5. Курс российского уголовного права. Общая часть / Под ред. акад. В.Н.Кудрявцева и проф. А.В.Наумова. М.: Спарк, 2002, 1040 ст.
6. Тихомиров Ю.А. Курс сравнительного правоведения. М.: Юридическая литература,1996, 428 ст.
7. Газ. «Известия». 1999 г., 26 февраля
8. Уголовный кодекс Франции. СПб: Юридический центр Пресс, 2002, 650 ст.


## ОБЩАЯ ХАРАКТЕРИСТИКА АМНИСТИИ И ПОМИЛОВАНИЯ В ЗАКОНОДАТЕЛЬСТВЕ ЗАРУБЕЖНЫХ СТРАН


**С.Н.РЗАЕВА**


## РЕЗЮМЕ


В статье исследуется общая характеристика амнистии и помилования в законодательстве зарубежных стран. В этой связи установлено, что законодательства большинства стран предусматривают освобождение от ответственности и наказания, применяя амнистию. Как правило, в зарубежных странах помилование осуществляется со стороны главы государства. В странах, законодательства которых допускают амнистию, право на объявление амнистии принадлежит высшему законодательному органу. Вместе с тем, в этих странах не разработаны правила объявления и применения амнистии. Само применение амнистии в зарубежных странах является редким явлением.

В статье в соответствии с заявленной темой приводятся определенные выводы.

## GENERAL ANALYSIS TO AMNESTIES AND PARDON IN LEGISLATION OF FOREIGN COUNTRIES

**S.N.RZAYEVA**

**SUMMARY**

The article researches general analysis to amnesties and pardons in the legislation of foreign countries. İt is mentioned that most foreign countries realize relieve of punishment and criminal responsibility actually by legislative pardon. Pardon is, as a rule, realized by the head of the state in foreign states. The countries which allow amnesty realize it by the legislative organ.

Therefore, the rules of declaring and applying amnesty aren't profoundly worked – out in these states. The application of amnesty is a rare case in foreign countries.

The author draws relevant conclusions concerning the issue in the article.